UOT 1(09)
DOI: https://doi.org/10.30546/25194011.2026.201.2.4.5074

# RABİNDRANAT TAQORUN ƏSAS FƏLSƏFİ İDEYALARI

ÜLVİYYƏ RİZVAN QIZI AĞABƏYOVA
*Bakı Dövlət Universiteti,*
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
*Akademik Zahid Xəlilov küçəsi 33, AZ1148*
*E-mail: ulviya.agabeyli@mail.ru*
*https://orcid.org 0009–0008–9805–5099*

**XÜLASƏ**

Məqalə iyirminci yüzilliyin dahi şəxsiyyətlərindən hesab olunan, Şərq və Qərb dəyərlərini yaxınlaşdırmağa çalışan Rabindranat Taqorun fəlsəfi ideyalarının tədqiqinə həsr edilmişdir. Eyni zamanda məqalədə mütəfəkkirin estetikaya dair fikirləri təhlil olunmuşdur. Fəlsəfi baxışlarında panteizmə meyl edən Taqor Tanrı və təbiət, Tanrı və insan vəhdətindən bəhs edir. Fəlsəfəsinin əsasını təşkil edən estetik görüşləri özünün rəsm əsərlərində, musiqi dünyasında əksini tapmışdır. O, sənəti, incəsənəti mənəvi inkişafın mühüm vasitəsi kimi dəyərləndirirdi. Taqora görə, estetik zövq insanın mənəvi inkişafının, daxili aləminin əsas meyarıdır. Gözəllik əqlin, təfəkkürün, eyni zamanda ruhun məhsuludur. Gözəllik Tanrının təcəllisi olduğundan birbaşa insanın harmonik tərbiyəsinə təsir edir. Sevgiyə böyük önəm verən mütəfəkkir qeyd edir ki, sevgi gözəlliyi yaradaraq, insanın birbaşa iç dünyasına təsir edir və o, dünyaya sevinc hissi ilə bağlanır. Gözəllik insanın mənfi emosiyalarını, bədxah əməllərini cilovlayan ali hissdir. Bu hissdən sağınmaq olmaz. Məhz buna görə məqalədə nəzər-diqqətimiz estetikanın əsasını təşkil edən gözəllik hissinə yönəlmişdir.

**Açar sözlər:** *R.Taqor, panteizm, Ali Varlıq, təbiət, insan, estetik zövq, musiqi, sənət, incəsənət.*

## Giriş

Məşhur hind mütəfəkkiri, çoxsaylı şeirlərin müəllifi Rabindranat Taqor yalnız bir şair və yazıçı deyil, həm də dövrünün böyük filosofu, pedaqoq, musiqiçi və ictimai xadim olmuşdur. 1861-ci ildə Kəlküttədə dünyaya göz açmış və özünün maraqlı görüşləri ilə seçilmişdir. Taqor 20-ci yüzilliyin əvvəllərində Şərq dünyasının Qərbdə tanınmasında mühüm rol oynamışdır. O, Brahman haqqında vedanta təlimini (bhakti haqqında vişnuizmi) qəbul etmişdir. Bu baxımdan Hindistanın qabaqcıl mütəfəkkirləri Taqoru vedantist adlandırırdılar [4, s.254-255].

O, ictimai-siyasi fəaliyyəti ilə yaddaşlarda qalmış, Hindistanın milli oyanış hərəkatında fəal iştirak etmiş, ingilis müstəmləkəçiliyinə qarşı mənəvi və mədəni mübarizənin simvoluna çevrilmişdir. Taqorun dünyagörüşünün əsasında Şərqin ənənəvi fəlsəfəsi ilə Qərbin rasional və humanist dəyərlərinin sinkretizmi dayanır. Əsərlərinin məzmunu, ideyaları, şeirləri ümumbəşəri səciyyə daşımış, Şərqlə Qərbi, demək olar ki, bir-birinə yaxınlaşdırmışdır.

1913-cü ildə “Gitancali” (“Qurbanlıq nəğmələri”) əsəri ilə ilk dəfə Şərqdə Nobel Mükafatına layiq görülən Taqor beynəlxalq miqyasda qəbul olunan mütəfəkkirdir. Əsərlərində o, əsasən, insanın ilahi olanla münasibətini, kainatla harmoniya içində yaşamaq ideyasını tərənnüm edirdi.

Bu məqalənin yazılmasında əsas məqsəd Rabindranat Taqorun çoxşaxəli dünyagörüşünü fəlsəfi və estetik aspektlərdən təhlil etməkdir. Məqalədə onun əsas fəlsəfi ideyaları, estetik görüşləri və sənətə yanaşması sistemli şəkildə araşdırılacaq. Bu araşdırma mütəfəkkirin fikirlərini daha aydın anlamağa, həmçinin çağdaş dünyada bu ideyaların Şərq insanının dünyagörüşünə necə təsir edə biləcəyini düşünməyə imkan verəcəkdir.

Əsərlərində R.Taqor fəlsəfi-estetik fikirləri ilə yanaşı, milli-azadlıq haqqında ideyalara da geniş yer ayırmışdı.

Böyük hind mütəfəkkiri, siyasi və ictimai xadim Cəvahirləl Nehru deyirdi ki, Taqor siyasi xadim olmasa da, hind xalqının həyatı onu daim düşündürmüşdü [6, s.160]. Taqor fəlsəfəsinin əsasını ruhun azadlığı, mənəvi kamillik və kosmik birlik ideyaları təşkil edir. O, Vedanta fəlsəfəsinə əsaslanmış, bu ənənəvi baxışlarını müasir humanist və fərdiyyətçi yanaşmalarla sintez etmiş və yeni bir fəlsəfi model yaratmışdır.

Upanişad təliminə əsaslanaraq, Taqor İlkin Reallığı kainatın əsası kimi qəbul edir. Reallıq deyəndə, o, obyektiv maddi həqiqəti deyil, tanrı, Brahman, Ali Şəxs, dünyəvi “Mən” adlandırdığı varlığı Ali ilahi başlanğıc kimi nəzərdə tutur. Mütəfəkkirə görə İlahi varlıq təbiətdən və insandan təcrid olunmayıb, əksinə bütün predmet və hadisələrdə təzahür edir. Dünyadan təcrid olunan Tanrı ola bilərmi? – deyə Taqor sual edir. O, qeyd edirdi ki, əbədi ruh hər şeydə mövcuddur və biz hər dəfə nəfəs alanda Tanrıda yaşadığımız həqiqəti hiss etməliyik [6, s.167].

Taqor bəzi məqamlarda panteist mövqedən də çıxış edir. “Allah və təbiət, allah və insan qarşılıqlı əlaqədədir və bir-birinə təsir edir” fikri Taqor fəl-

səfəsinin panteist xarakter daşıdığına sübutdur. Varlığın bütün elementləri ilahi varlığın (puruşanın) bir hissəsidir. Mütəfəkkirin fikrincə, Allah yalnız ətraf aləmdə mövcud deyil, eyni zamanda yaradıcı ilkin varlıqdır [6, s.168].

R.Taqor fəlsəfəsinin əsas prinsipləri

- Ali Varlıq özünü ifadə etmək üçün dünyanı və insanları yaradan şəxsiyyətdir;
- Ali Varlıq və bəşəriyyət bir-biri ilə qarşılıqlı sevgi ilə bağlıdır;
- Həyatın axını bütün Kainatdan keçir;
- İnsanın bütün məqsədi ondan ibarətdir ki, insan "eqo"sunu məhdudlaşdıran arzulardan şəxsiyyətini azad etsin və sevgisində ruhunu ifadə edə bilsin;
- Din müxtəlifliyə birlik gətirməlidir;
- Müasir sivilizasiyada maddi sərvətə meyil artıb, mənəvi rifah isə tamamilə unudulub;

Əsl təhsilin məqsədi ondan ibarət olmalıdır ki, insanları cahillikdən, hərislikdən, mövhumatdan azad edə bilsin [5, s.330].

Taqorun fəlsəfəsi reallığın poetik görüntüsünə əsaslanır. Bu, "darşana" ("görmə", "xəyal") adlanan hind fəlsəfi ənənələri ilə bağlıdır. Taqora görə, Ali Varlıq mənəvi reallıqdır. Ali Başlanğıc insana müraciət edərək deyir: "Mən səni sevirəm və səndən də sevgi istəyirəm. Özünü dərk etmək üçün bir-birimizə ehtiyacımız var. Təbiət və onun gözəlliyi sənin ürəyini sevgi üçün açacaq. Nəticədə sən xeyir qazanacaqsan".

Mütəfəkkir upanişad təliminə söykənərək, Şəxssiz Mütləq Varlığı insan qarşısında İlahi Şəxsiyyət adlandırırdı. Ali Başlanğıc nəyisə xəlq edəndə şəxsiyyət kimi mövcud olur. İnsan Tanrını işığı hiss etdiyi kimi hiss edir. Taqora görə sevinc həqiqətin meyarıdır. Ali Varlığı seyr edərkən sevinc hiss olunur.

Taqor qnoseoloji görüşlərində idrakın üç mənbəyini qəbul edirdi: hiss, ağıl, duyğu (intuisiya). Hiss vasitəsilə dünya dərk edilir, ağıl məntiqə əsaslanan elm və fəlsəfəni yaradır, duyğu vasitəsilə Ali Varlıq aşkarlanır [5, s.332].

Fəlsəfi məzmun daşıyan "Sadhana" ("Həyat yaradıcılığı") adlı kitabında yazıçı qeyd edir ki, əsər nə fəlsəfi, nə də elmi məzmun daşıyır. Ümumiyyətlə, Taqorun fəlsəfi görüşü emosional-estetik duyumla xarakterizə olunur. Ona görə də Taqor fəlsəfəsi onun estetik görüşlərində öz ifadəsini tapmışdır. Upanişad prinsiplərinə əsaslanaraq, Taqor göstərir ki, Brahman-Atman reallığı fəlsəfənin köməyi ilə dərk edilə bilməz [6, s.165].

Taqor fəlsəfəsinin ana xəttini insan problemi təşkil edir. "Sadhana" əsərində sevgiyə önəm verilir. O, qeyd edir ki, insanları, təbiəti sevən Tanrını və bütün bəşəriyyəti sevir.

Həyatın tələblərini və sosial vəzifələrini məsuliyyətlə yerinə yetirən "ideal insandır". Dindar insan Ali Varlığın çağırışına sevgi ilə cavab verməlidir. Tanrını sevən insanları və təbiəti də sevəcəkdir. Din sevgi, həmrəylik və sadəlikdir [5, s.334].

Dahi şair, mütəfəkkir, rəssam Taqorun fəlsəfi irsi yalnız nəzəri sistem deyil, həm də insana praktik həyatında mənəvi yol göstərənidir. Onun əsərləri və ictimai-siyasi görüşləri müasir insanın mənəvi-mədəni inkişafı üçün əsas mənbədir. Taqorun ideyaları, xüsusilə də təhsil, azadlıq, estetikaya dair fikirləri bu gün də öz aktuallığını qoruyub saxlamışdır.

Taqor azadlıq haqqında maraqlı fikirləri ilə seçilir. Belə ki, onun üçün azadlıq yalnız siyasi xarakter daşımır. Mütəfəkkirə görə azadlıq mənəvi bir fenomendir. Onun fikrincə, insan yalnız öz daxilindəki həqiqəti tanımaqla əsl azadlığa çata bilər. İnsanın mənəvi mahiyyətinə, yaxud şəxsiyyətinə gəlincə, onda qeyri-müəyyənlik vardır. Şəxsiyyətin mütləq azadlığını "təbiətin kor sarğıları" içərisində deyil, mənəvi aləmdə axtarmaq lazımdır. O aləmdə ki, orda insanın Tanrı ilə mistik əlaqəsi "daha ali sevgi" ilə təsdiqlənir. İnsanın ruhunun azadlığı onun Tanrını tanıması ilə səciyyələnir [6, s.171].

Şair insan və təbiət münasibətinə də diqqət yetirmiş və qeyd etmişdir ki, insan təbiətdən uzaqlaşdıqca mənəvi cəhətdən yoxsullaşır və onun daxilində bir boşluq yaranır. Bunun səbəbi kimi texnologiyanın inkişafı və insanın nəzərinin ona yönəldiyini göstərirdi.

Taqorun dünyagörüşündə sevgi və şəfqət mühüm yer tutur. O, hesab edirdi ki, insanın mənəvi kamilliyə yetişməsi üçün başqalarına sevgi və məhəbbət göstərməsi mühüm şərtdir.

1915-ci ildə yazdığı "Ev və dünya" adlı əsərində "bizi əhatə edən aləm reallıq dünyasıdır" fikrini irəli sürmüşdü. Mütəfəkkir qeyd edirdi ki, kiçik toz zərrəciklərindən tutmuş göydəki ulduzlara qədər hamısı maddi aləmdir [6, s.164].

Mütəfəkkirin hind mədəniyyətinə, din və fəlsəfəyə həsr olunmuş "Sadxana" ("Həyatın yaradıcılığı") adlı esselərdən ibarət olan kiçikhəcmli fəlsəfi kitabı 1915-ci ildə ərsəyə gəlmişdir. Kitabda yer alan esselər şairin Benqal Universitetində, sonra da Harvard Universitetində oxuduğu mühazirələr əsasında tərtib edilmişdir. Həmin kitab sayəsində qərb oxucuları Hindistanın mədəniyyəti ilə tanış olmağa müvəffəq olmuşlar. Taqor yazırdı ki, "bu kitabda yer alan ideyalar nə fəlsəfi, nə də elmi sistem kimi xarakterizə olunmur. Çünki mən dünyaya filosof və ya alim kimi deyil, bir rəssam kimi yanaşıram". Taqor onu əhatə edən aləmi estetik-emosional hisslərlə dərk etməyə çalışırdı [6, s.165].

"Sadxana" əsərində şər probleminə toxunan Taqor "Nə üçün kainat və insanlar mövcuddur?". Kainat danılmaz həqiqətdir, şər isə mütləq və daimidir – deyə qeyd edir. Maraqlı olan dünyada maneələrin və əzab-əziyyətin olması deyil, ordakı qanun və nizamın, gözəllik və sevincin, xeyir və sevginin olmasıdır. Sevgi həyatın müsbət bağlanğıcıdır: uşaqlara, dostlara, təbiətə olan sevgi. Ölüm isə həyatın mənfi, bədbin üzüdür. Ölüm bütövün, yəni həyatın hissəsidir. Şər həyatı dayandıra bilməz, insandan malik olduğunu ala bilməz. Ona görə də şər formasını dəyişərək yerini xeyirə verir. İnsanın həyatında bədbin anlar olur, lakin həyat nikbinliyə, irəliyə doğru can atır. Həyat özü sübut edir ki, o, şərin təcəssümü ola bilməz. İnsanın iradəsi, onun xarakteri daim təkmilləşməlidir ki, şəri dəf edə bilsin. Həyat prosesi davam edir və biz bunu özümüzdə hiss edirik, bizim iradəmiz var və ona heç bir mənfi keyfiyyətlər təsir edə bilməz. Ona görə də insanlıq şərdən xeyirə doğru can atır. Xeyir insan təbiətinin müsbət başlanğıcıdır. Ona görə də insan daim xeyiri dəyərləndirir. Biz xeyiri dərk etdik, onu sevdik və insanlara böyük hörmət göstərdik. İnsan ətrafdakıların ona verdikləri dəyəri anlayanda o öz mənəvi təbiətini hiss etməyə başlayır. Və o necə insan olmalıdır – deyə düşünür və iradəsi sayəsində daha yaxşı keyfiyyətlər qazanmağa səy edir [7, s.261-265].

Rabindranat Taqor elm, bilik haqqında yazır: "insan inkişafın ilk pilləsində predmetlər arasındakı fərqi dərk edə bilmirdi. O, varlıqları canlı və cansızlara ayıra bilmirdi. İnsana elə gəlirdi ki, hər şey bir qanuna tabedir. Zaman keçdikcə, insanın şüuru inkişaf etdikcə o, canlı və cansız təbiət arasındakı fərqi anlamağa başladı. İlk dəfə bərabərlikdən əksliklər meydana çıxdı. İnsan heç zaman həyatın əsl əlamətlərini anlaya bilməzdi. Belə olan halda heyvanlar və bitki aləmi arasındakı fərq silinməyə başlamış, dünyanın harda bitdiyini və yeni aləmin harda başladığını müəyyən etmək çətinləşmişdir. Tamdan əksliklər, əksliklərdən vahid törəmişdir. Upanişad müdriklərinin söylədiyinə görə, Həyat hər şeydə və hər yerdədir." [7, s.293].

**R.Taqorun estetik görüşləri**

Şairin estetik görüşləri yazdığı şeirlərində, rəsm əsərlərində əksini tapmışdır. Taqorun estetik görüşləri onun fəlsəfəsi ilə sıx bağlı olmuşdur. O bu fikirlərində subyektivizmlə obyektivizm arasında tərəddüd etmişdir. O, qeyd edirdi ki, təbiət obyektiv surətdə mövcuddur. İncəsənət obyektiv mənbədir. Təbiət rəssamların ürəyinə daxil olur, orada inkişaf edib təzədən yaranır. Orada işin alovu bayram şamlarına, əməyin səsi musiqiyə çevrilir. Estetikanın əsas məsələsi incəsənətin həqiqətə olan münasibətidir. Taqorun fikrincə, həm alim, həm də rəssam eyni təbiətlə iş görür. Onların arasındakı fərq ondan ibarətdir ki, elm adamı vahid şəxssiz başlanğıc axtarır, rəssam isə ayrı-ayrı şeylərin daxili aləmi ilə xarici mühit arasındakı uyğunluğu tapır. O, göstərirdi ki, təbiətdə hər şey gözəldir. İncəsənət xalqa və insanlara xidmət etməlidir. Taqora görə gözəllik insanların bütün ideallarının həll olunmasıdır. O, inanırdı ki, insanların əməyi ilə xoşbəxt və gözəl həyat yaratmaq olar. Böyük mütəfəkkir incəsənət adamlarına deyirdi ki, həyata real yanaşmaq lazımdır: "cənnəti günəş isığında, yerin yaşıllığında, insanın öz gözəlliyində, insan varlığında görmək olar". Estetikanın əsas məsələsi incəsənətin həqiqətə olan münasibətindən ibarətdir. Bədii obraz xarici aləmin, təbiətin ifadəsidir [4, s.258-261].

Mütəfəkkirə görə sənət, incəsənət yalnız zövq almaq vasitəsi deyil, həm də mənəvi inkişafın bir formasıdır. Taqor estetik görüşlərində Şərqin mistik ənənələrindən, eləcə də Qərb romantizmindən bəhrələnmişdir. Estetik təfəkkürünün zirvəsi kimi dəyərləndirilən "Gitancali" əsərində yazıçı insan ruhunun Tanrı ilə birləşmə arzusunu, kosmik harmoniya və sevgi hissini poetik şəkildə ifadə etməyi bacarmışdır. Taqor musiqi sənətinə böyük maraq göstərmiş, yüzlərlə əsərin müəllifi olmuşdur. "Rabindra Sanqit" ("Rabindranatın musiqisi" – bu, Taqorun musiqi yaradıcılığına verilən ümumi addır) iki min yarım mahnını özündə birləşdirən bir topludur. Böyük musiqiçi və şair R.Taqor ayrı-ayrılıqda şeir və mahnılar yazmış, onları məharətlə sintez etmişdir. O, istedadlı bəstəkar kimi hind klassik musiqisinin, xalq musiqisinin və qərb musiqi elementlərinin unikal birləşməsini yarada bilmişdir [11]. Onun musiqi əsərləri Hindistanın hüdudlarını aşaraq dünyanın bir çox yerlərində ifa edilir. Həmin mahnılar fəlsəfi məzmun daşıyaraq insanın daxili dünyasını zənginləşdirir və onu ilahi sakitliyə aparır. Həmin mahnılarda Tanrıya sevgi və inamdan (bhakti), vətənpərvərlikdən, təbiətə sevgidən, hind xalqının gündəlik həyatından, şəxsi hisslərdən, milli ənənələrdən, davranışlardan və mənəvi düşüncələrdən bəhs olunur.

Musiqi duyumu ilə yanaşı Taqorun teatr sənəti ilə də bağlı səriştəsi olmuşdur. Onun teatr əsərləri estetik və fəlsəfi görüşləri ilə sıx bağlıdır. 1912-ci ildə qələmə aldığı "Poçt şöbəsi", 1914-cü ildə yazdığı "Çitranqada", "Qırmızı oleandrlar" adlı pyeslərində mütəfəkkir ölüm və əbədi həyat, ilahi sevgi problemlərinə toxunmuşdur.

Rabindranat Taqor sənət adamlarını yüksək dəyərləndirir və hesab edirdi ki, onlar ilahi missiyanı yerinə yetirir, cəmiyyətin mənəvi ruhunu əks etdirir.

Bizim yaradıcılığımız dünyanın Allah tərəfindən yaradılması prosesində kiçik variasiyalardan ibarətdir - deyə Taqor bildirirdi [3, s.407].

Mütəfəkkir üçün sənət, incəsənət əqlin, təfəkkürün üsuludur. O, estetik zövqü insanın mənəvi inkişafının, daxili aləminin əsas vasitəsi kimi qəbul edirdi.

Taqor incəsənəti belə dəyərləndirir: incəsənətdə insan məqsədlərini deyil, özünü aşkar edir [10].

Mütəfəkkirə görə estetik təcrübə ruhun oyanışıdır. Estetika gözəllik fəlsəfəsidir. Taqorun estetikasında gözəllik Tanrının təcəllisi kimi dəyərləndirilir. Onun fikrincə, sənət, incəsənət insanın öz ilahi təbiətini dərk etməyə yardımcı olur.

Gözəllik hissinin inkişaf etdirilməsi fərdin harmonik tərbiyəsinə birbaşa təsir edir. İnsan həyatında gözəllik vacib şərtdir. Kainat insan ruhunu öldürmür, əksinə onu inkişaf etdirir. Gözəllik hissi ciddi əmək sayəsində formalaşır. Gözəllik çox zaman bizim sönməz istəklərimizdə olur. Əslində, gözəllik zəruri olandan yüksəkdir, o bizi alçaldığı hisslərdən azad edir. Gözəllik bizim arzu və istəklərimizi müəyyən çərçivədə saxlayır. Gözəllik sayəsində biz bizi əhatə edən aləmlə ali sevinc hissi ilə bağlıyıq. Ali sevinc hissi azadlığımızın simvoludur. Gözəllik yalnız mədəniyyəti təqdim etmir, eyni zamanda hisslərimizi cilovlamağa kömək edir. Təmkinlik gözəllikdən zövq almağa yardım edir [7, s.273-276].

Gözəllik, yazıçıya görə, insanın daxili aləmini, ruhani dünyasını zənginləşdirir. O, yazır: "gözəllik duyğusunu aşılamadan mükəmməl insan yetişdirmək olmaz" [3, s.182].

Qeyd edək ki, Taqor gözəllik probleminə həssaslıqla yanaşmışdır. Onun üçün Gözəllik – kamillik güzgüsünü üzünə tutarkən gördüyün həqiqətin təbəssümüdür [10].

O, göstərirdi ki, insanların xarakterinə görə gözəllik məfhumu fərqli cür anlaşılır. Əksər insanlar üçün gözəllik yalnız hiss və həvəs mənbəyidir. Belə şəraitdə gözəllik öldürücü və təhlükəli ola bilir. Mütəfəkkir misal çəkir və yazır ki, məhz Şri-Lankanın qızıl paytaxtı hesab olunan Anuradxapura gözəllik ucbatından məhv oldu. Eradan əvvəl IV əsrdə əsası qoyulmuş və on beş əsrə qədər öz ecazkarlığı ilə seçilən bu şəhər Sinqal çarlığının paytaxtı olmuş, hindlilərin hücumundan sonra süquta uğramış, əhali tədricən oranı tərk etmiş və qızıl şəhər cəngəlliyə çevrilmişdi. Eradan əvvəl III əsrdə Anuradxapuraba buddizm dininin ilkin rüşeymləri yayılmış, şəhər buddistlərin müqəddəs məkanı hesab edilmişdi.

İnsan o qədər mükəmməl yaradılışdır ki, musiqi duyumu ilə nəğmənin gözəlliyini hiss edir. Taqor üçün sənət azad ifadə vasitəsidir. Sənətdən ideoloji və ya ticarət vasitəsi kimi istifadə etmək gözəlliyə bir zərbədir. Ona görə də Taqorun əsərləri saf estetik dəyərlərin ifadəsi kimi qiymətləndirilir.

Taqora görə, sevginin həqiqi gözəlliyini hər hansı əxlaqsız deyil, sədaqətli həyat yoldaşı dərk edə bilər. Yazışı sevgidə sədaqət, səbr tələb edir və qeyd edir ki, yalnız belə təqdirdə sevginin misilsiz gözəlliyini hiss etmək mümkündür. Əgər gözəlliyə olan sevgimizə - sədaqətli həyat yoldaşımıza qarşı səbrimiz tükənsə, nə baş verər? Onda sevgimiz Gözəlliyi dərk edə bilməz. Belə ki, gözəllik insana dözümlülük, iradə, sədaqətli olmağı öyrədir [7, s.276]. Taqor sevgiyə böyük dəyər verir: "Tumurcuq sevəndə çiçək olur, çiçək sevəndə – bar" [3, s.203].

Mütəfəkkir göstərirdi ki, gözəlliyi daha dərindən başa düşmək üçün təfəkkür, idrak kifayət etmir. Bunun üçün mənəvi görmə və xüsusi bilik lazımdır. Mənəvi qavrayış bir çox faktorlardan asılıdır: məsələn, hisslər qavrayışı genişləndirir. Etika daha geniş imkanlar açır. Mənəvi qavrayış bizim idrakımızı sərhədsiz edir. Gözəllik insanın ruhunu rahatlaşdırır. Rənglərin gözəlliyi ürəyin istiliyinin əksidir. Ona görə də Gözəllik üzərimizdə hakimdir. Gözəllik və Xeyir fərqli cür təsir etsə də, sonda xeyir gözəlliyi yaradır. Xeyir gözəllik kimi insanı fədakarlığa sövq edir. Gözəllik İlahinin sərvətini təbiətdə bariz edir, xeyir isə insanların həyatında. Xeyir Gözəlliyin içində əriyib ona çevrilir [7, s.281-282].

## Nəticə

Sonda belə nəticəyə gəlmək olar ki, Rabindranat Taqorun həm mənəvi-fəlsəfi, həm də estetik dünyagörüşünün yer aldığı dəyərli zəngin irsi bu gün üçün öz aktuallığını qoruyub saxlamışdır. Böyük yazıçı yalnız Şərq dünyası üçün deyil, bütün bəşəriyyət üçün, onun mənəvi tərəqqisi üçün, insanın dünyagörüşünün zənginləşməsinə xidmət edəcək əsərlər yaratmışdır. Həmin əsərlərdə mütəfəkkir insanı öz daxili azadlığını dərk edərək, təbiətə, insanlığa xidmət edəcək sevgi duyumunu hiss etməsinə sövq edir. Onun fəlsəfi ideyaları, estetik baxışları hər kəsin həyat yolunda bir işıqdır. Mütəfəkkirin dünyagörüşü sevgi və harmoniyaya söykənir. Onun fikrincə, Ali Varlıq və insan arasında harmoniya və qarşılıqlı sevgi olduqda insan daim rahatlıq tapa bilər.

Eyni zamanda Taqorun estetik görüşlərinin kökündə humanizm dayanır. Hind cəmiyyətinin ciddi və qəti şəkildə qəbul etdiyi kasta quruluşu çox halda toplumun inkişafında, cəmiyyətin tərəqqisində səd-

lər və maneələr yaradır. Rabindranat Taqor gözəlliyə böyük əhəmiyyət verir və qeyd edirdi ki, Gözəllik kastaya malik deyildir. O, heç bir sədd və sərhəd tanımır. Gözəllik kastaya malik olsa, çərçivədə sıxılıb qalar, öz dəyərini itirər və insan həyatındakı əhəmiyyətli rolundan məhrum olar. O, hər şeydə və hər yerdə mövcuddur. Öz nuru ilə, işığı ilə Gözəllik insanın ani, keçici, müvəqqəti həyatını əbədiləşdirir. Gözəllik insanın ruhuna nüfuz edir və dünyanı öz nəğməsi ilə bəzəyir. Gözəllik həqiqətin meyarıdır. Və nəhayət, insan Həqiqəti daha dərindən dərk etməyə başlayır.

R.Taqor Hindistanda üç böyük hərəkatın başladığı bir dövrdə - XIX əsrin ikinci yarısında dünyaya göz açmışdı. Həmin dövrdə hinduizm islahatçısı və “Brahmo Samac” cəmiyyətinin yaradıcısı, ümumiyyətlə dini-islahatçı kimi tanınmış Ram Mohan Roy fəaliyyət göstərmişdir. Bununla yanaşı o dövrdə Hindistanda böyük ədəbi inqilab baş vermişdir ki, həmin hərəkat Bonkimçondro Çottopadxyanın adı ilə bağlıdır. Bütün bunlar onun dünyagörüşünün formalaşmasında öz təsirini göstərmişdir. Bu baxımdan mütəfəkkirin baxışları və ideyaları rəngarəng və çoxşaxəlidir.

Taqorun əsərlərində irəli sürdüyü fikirləri çağdaş dünyanın mənəvi-mədəni və fəlsəfi sferasında önəm daşıyan dəyər kimi qiymətləndirmək və təcrübədə tətbiq etmək vacib məsələlərdəndir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Mahatma Q. “Bütün insanlar qardaşdır”, Bakı, “Sivilizasiya və Maarifçilik” İctimai Birliyi, 2011, 246 s.*

*2. Рабиндранат Тагор. Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 2011, 928 s.*

*3. S.Xəlilov. Aforizmlər: seçilmişlərdən seçilmişlər. Bakı, “Çaşıoğlu”, 2012, 560 s.*

*4. Бродов В.В. Индийская философия нового времени. Москва, “Издательство Московского Университета”, 1967, 284 с.*

*5. Великие мыслители востока / ред. МакГрил, Ян /, “Крон-Пресс” Москва, 1998, 656 с.*

*6. Литман А.Д. Современная индийская философия. “Мысль”, Москва, 1985, 399 с.*

*7. Открытие Индии. Философские и эстетические воззрения в Индии XX века. Москва, Художественная литература, 1987, 611 с.*

*8. Писменные памятники и проблемы истории культуры народов Востока. XXIII годичная научная сессия ЛО ИВ АН СССР. Материалы по истории отечественного востоковедения, Часть III, Москва, "НАУКА" 'лавная редакция восточной литературы, 1990, 230 с.*

*9. Тагор, Рабиндранат. Садхана: творчество жизни: [сборник эссе] / Р. Тагор.- 2-е изд.- М.: Амрита-Русь, 2011, 176 с.*

*10. https://az.wikiquote.org/wiki/Rabindranat_Taqor - 24.08.2025*

*11.https://www.ibpbooks.com/rabindra-sangeet-a-tradition-of-history-in-music/p/59484 - 11.09.2025*


## ОСНОВНЫЕ ФИЛОСОФСКИЕ ИДЕИ РАБИНДРАНАТА ТАГОРА


**Ульвия Ризван Агабекова,**
***кандидат философских наук, доцент***



**РЕЗЮМЕ**

Статья посвящена исследованию философских идей Рабиндраната Тагора, одного из выдающихся деятелей XX века, стремившегося сблизить ценности Востока и Запада. В статье также анализируются эстетические взгляды мыслителя. В своих философских воззрениях, тяготея к пантеизму, Тагор рассуждает о единстве Бога и природы, Бога и человека. Его эстетические взгляды, составляющие основу философии, нашли отражение в живописи и музыкальном творчестве. Он ценил искусство как важное средство духовного развития. По мнению Тагора, эстетический вкус является главным критерием внутреннего мира и духовного совершенствования человека. Красота — это продукт разума, мышления и одновременно духа. Так как красота является проявлением Бога, она непосредственно влияет на гармоническое воспитание личности. Мыслитель, придававший большое значение любви, отмечал, что именно любовь создает красоту, воздействует на внутренний мир человека и связывает его с миром через чувство радости. Красота — это возвышенное чувство, сдерживающее негативные эмоции и злонамеренные поступки человека. От этого чувства невозможно отказаться. Именно поэтому в статье внимание сосредоточено на чувстве красоты, составляющем основу эстетики.



**Ключевые слова:** *Р.Тагор, пантеизм, Высшее Существо, природа, человек, эстетический вкус, музыка, искусство.*

# THE MAIN PHILOSOPHICAL IDEAS OF RABINDRANATH TAGORE

**Ulviyya Rizvan Aghabayova,**
***PhD in Philosophy, Associate Professor***

**SUMMARY**

The article is devoted to the study of the philosophical ideas of Rabindranath Tagore, considered one of the greatest personalities of the twentieth century, who sought to bring Eastern and Western values closer together. At the same time, the article analyzes the thinker's views on aesthetics. In his philosophical outlook, inclined towards pantheism, Tagore discusses the unity of God and nature, God and man. His aesthetic views, which constitute the basis of his philosophy, were reflected in his paintings and musical creativity. He valued art as an important means of spiritual development. According to Tagore, aesthetic taste is the main criterion of a person's spiritual growth and inner world. Beauty is the product of reason, thought, and also the spirit. Since beauty is the manifestation of God, it directly influences the harmonious upbringing of a person. Emphasizing the importance of love, the thinker notes that love creates beauty, directly affects the human inner world, and binds man to the world with a sense of joy. Beauty is a noble feeling that restrains human negative emotions and malicious deeds. This feeling cannot be avoided. For this reason, the article focuses on the feeling of beauty, which constitutes the foundation of aesthetics.

**Keywords:** *R. Tagore, pantheism, Supreme Being, nature, human, aesthetic taste, music, art, aesthetics.*

*Rəyçi: fəlsəfə üzrə fəlsəfə doktoru, dos. Nəriman Qocatürk*
*Məqalə redaksiyaya daxil olub: 12.03.2026*
*Çapa qəbul olunub: 23.04.2026*

*The date of the admission of the article to the editorial office: 12.03.2026*
*Accepted for publication: 23.04.2026*